# Dövlət qulluğu sınaq imtahanı №1



Sual 1
Cavablandırılmayıb
0 - 1
İşarə

Sinonim frazeoloji birləşmələri müəyyən edin.

Cavablardan birini seçin:

A. əldən düşmək – əl saxlamaq

B. könlü açılmaq – ürəyini boşaltmaq

C. gözdən düşmək – gözdən qaçmaq

D. ürəyi qırılmaq – könlünə yatmaq

E. acığı gəlmək – zəhləsi getmək

Sual 2
Cavablandırılmayıb
0 - 1
İşarə

Sinonimlərlə bağlı fikirlərdən biri düzgün ***deyil***:

Cavablardan birini seçin:

A. Təkcə sözlərdə deyil, söz birləşmələrində də sinonimlik müşahidə olunur.

B. Müxtəlif nitq hissələrinə aid olur.

C. Yazılışı və deyilişi müxtəlif, mənaları eyni və ya yaxın olur.

D. Bütün sinonimlər bir-birilərini əvəz edə bilmir.

E. Sözün bədii təsir gücünü artırır.

Sual 3
Cavablandırılmayıb
0 - 1
İşarə

İsimdən düzələn sifətləri müəyyən edin.

Cavablardan birini seçin:

A. gülər, xəyalpərəst, parlaq

B. işıqlı, sözsüz, qorxunc

C. balaca, öldürücü, normal

D. ənənəvi, qayğılı, gümüşü

E. dünənki, qabaqcıl, kəskin

Download: http://Yusif.Az

Sual 4
Cavablandırılmayıb
0 - 1
İşarə

Biri miqdar sayı ***deyil***:

Cavablardan birini seçin:

A. onda beş

B. on ikinci

C. iyirmi beş

D. yüzlərcə

E. bir sıra

Sual 5
Cavablandırılmayıb
0 - 1
İşarə

İsimdən düzəlmiş feilləri müəyyən edin.

Cavablardan birini seçin:

A. sakitləşmək, arxayınlaşmaq

B. gözləmək, otarmaq

C. vuruşmaq, döyüşmək

D. çoxalmaq, azalmaq

E. oturmaq, saralmaq

Sual 6
Cavablandırılmayıb
0 - 1
İşarə

Ədat işlənmiş cümləni müəyyən edin.

Cavablardan birini seçin:

A. Azər də bu işlərdən narazı idi.

B. Onlar ancaq Abbasqulu bəyin sözünü eşidirdilər.

C. Mirzə fikirləşdi ki, biz ona gerçəyi söyləməmişik.

D. Deməli, sən şəhərdə gizli dolanırsan.

E. Göyün üzü qaraldı, lakin yağış yağmadı.

Sual 7
Cavablandırılmayıb
0 - 1
İşarə

Hansı cümlədə məcazi mənalı ifadə işlənmişdir?

Cavablardan birini seçin:

A. Bayramda hamının arzuları dinlənilmişdi.

B. Şeirlərini çətinliklə yığdığı pullarla dərc etdirdi.

C. O, hər şeyə dodaq büzər, heç nəyi bəyənməzdi.

D. Artıq keçmişi tamamilə unutmuşdu.

E. Dayısının köməyi ilə özünə bir ev almışdı.

Download: http://Yusif.Az

Sual **8**
Cavablandırılmayıb
0 - 1
İşarə

Hansı cümlədə mübtədanın əlavəsi vardır?

Cavablardan birini seçin:

- A. Bura mənim Vətənimdir – Azərbaycandır.
- B. Sabah – martın 21-də dənizkənarı bulvarda konsert proqramı keçiriləcək.
- C. Dostlarımdan birinə – Ülviyyəyə bayram hədiyyəsi verildi.
- D. Kəndin kənarında – qayalıqda kəklikotu yığırdıq.
- E. Cavid Qasımlı – gənc alim xarici ölkələrin elmi jurnallarında məqalələr çap etdirir.

Sual **9**
Cavablandırılmayıb
0 - 1
İşarə

"Topoqrafiya" sözündə vurğu neçənci hecaya düşür?

Cavablardan birini seçin:

- A. 1-ci
- B. 3-cü
- C. 4-cü
- D. 5-ci
- E. 2-ci

Sual **10**
Cavablandırılmayıb
0 - 1
İşarə

Yalnız mənsubiyyət şəkilçisi artırılarkən ikinci hecasındakı saiti düşən sözləri müəyyən edin.

Cavablardan birini seçin:

- A. boyun, abır, isim, sətir
- B. çiyin, fəsil, xeyir, qədir
- C. ağız, burun, oğul, beyin
- D. burun, alın, fikir, cisim
- E. qisim, alın, qoyun, səbir

Sual **11**
Cavablandırılmayıb
0 - 1
İşarə

"*Ancaq Mehdi yenə də deyilənləri bir qulağından alıb, o biri qulağından ötürürdü*" (B.Talıblı) cümləsinin xəbəri nə ilə ifadə olunmuşdur?

Cavablardan birini seçin:

- A. III növ ismi birləşmə ilə
- B. feili sifət tərkibi ilə
- C. məsdər tərkibi ilə
- D. frazeoloji birləşmə ilə
- E. sinonimlə

Download: http://Yusif.Az

Sual **12**
Cavablandırılmayıb
0 - 1
İşarə

Hansı əməli yazı növü aşağıdakı hissələrdən ibarət olur?
1. müraciət hissəsi
2. ümumi hissə
3. fərqləndirici hissə
4. yekunlaşdırıcı hissə

Cavablardan birini seçin:

- A. vəkalətnamə
- B. bildiriş
- C. protokol
- D. məktub
- E. arayış

Sual **13**
Cavablandırılmayıb
0 - 2
İşarə

Yazılışı və tələffüzü ***fərqlənməyən*** sözləri müəyyən edin.

Cavablardan birini və ya bir neçəsini seçin:

- 1. xasiyyət
- 2. raund
- 3. qəyyum
- 4. təbii
- 5. iaşə
- 6. xaos

Sual **14**
Cavablandırılmayıb
0 - 2
İşarə

Ədəbi dil üçün səciyyəvidir:

Cavablardan birini və ya bir neçəsini seçin:

- 1. loru sözlər
- 2. ümumişlək sözlər
- 3. dialekt və şivələr
- 4. alınma sözlər

Sual **15**
Cavablandırılmayıb
0 - 2
İşarə

Durğu işarələrinin doğru işləndiyi cümlələri müəyyən edin.

Cavablardan birini və ya bir neçəsini seçin:

- 1. Xanım, mən sənə demədim ki, bu dərvişin əlindən heç zad qurtarmaz?
- 2. Göy üzünün möcüzəli rəngləri, mavi, qara, çəhrayı onun gözündə əks olunurdu.
- 3. Axı sən mənim oğlumsan Gülsüm ki, qızım deyil.
- 4. "Qarayazı" qoruğunun meşələri heyvanlar aləminin zənginliyi cəhətdən xüsusilə fərqlənir.
- 5. Əlbəttə, o, işlərinin çoxluğuna görə şikayət etmirdi, amma narahatlığı üzündən bilinirdi.

Download: http://Yusif.Az

Sual 16
Cavablandırılmayıb
0 - 1
İşarə

Azərbaycan Respublikasının Konstitusiyasına əsasən xalqın seçdiyi səlahiyyətli nümayəndələrdən başqa xalqı təmsil etmək hüququ var:

Cavablardan birini seçin:

- A. Vəkillər Kollegiyasının üzvlərinin
- B. heç kəsin
- C. Azərbaycan Respublikasının Prezidenti tərəfindən müvafiq səlahiyyət verilmiş hökumət üzvlərindən başqa heç kəsin
- D. Azərbaycan Respublikasının fövqəladə və səlahiyyətli səfirlərinin

Sual 17
Cavablandırılmayıb
0 - 1
İşarə

Azərbaycan Respublikasının Konstitusiyasına əsasən Azərbaycan Respublikası siyasi sığınacaq verir:

Cavablardan birini seçin:

- A. əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə
- B. başqa dövlətlərin ərazisində daimi yaşayan vətəndaşlarına
- C. başqa dövlətlərin ərazisində müvəqqəti yaşayan vətəndaşlarına
- D. siyasi əqidəsinə görə təqib olunan hər bir şəxsə

Sual 18
Cavablandırılmayıb
0 - 1
İşarə

Azərbaycan Respublikasının Konstitusiyası ilə müəyyən edilmiş vəzifələrə aiddir:

Cavablardan birini seçin:

- A. Cəmiyyətin və dövlətin siyasi həyatında iştirak
- B. Dövlət dilindən istifadə
- C. Vətəni müdafiə
- D. Birləşmək

Sual 19
Cavablandırılmayıb
0 - 1
İşarə

Azərbaycan Respublikasının Konstitusiyasına əsasən Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərinə aiddir:

Cavablardan birini seçin:

- A. vətəndaşlıq məsələlərinin həlli
- B. inzibati ərazi bölgüsü
- C. dövlətlərarası müqavilələrin təsdiqi və ləğvi
- D. beynəlxalq müqavilələrin təsdiqi və ləğvi

Download: http://Yusif.Az

Sual 20
Cavablandırılmayıb
0 - 1
İşarə

Azərbaycan Respublikasının Konstitusiyasına əsasən Azərbaycan Respublikasının Baş prokuroru kim tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir?

Cavablardan birini seçin:

- A. Azərbaycan Respublikasının Prezidenti
- B. Azərbaycan Respublikasının Ali Məhkəməsi
- C. Azərbaycan Respublikasının Milli Məclisi
- D. Azərbaycan Respublikasının Prokurorluğu

Sual 21
Cavablandırılmayıb
0 - 1
İşarə

Azərbaycan Respublikası Konstitusiyasında dəyişikliklərin təklif edilməsi təşəbbüsünün məhdudlaşdırılması ilə bağlı təsbit edilmiş müddəaya uyğun ***deyil***:

Cavablardan birini seçin:

- A. Azərbaycan Respublikası Konstitusiyasının 1-ci, 2-ci, 6-cı, 7-ci, 8-ci və 21-ci maddələrində dəyişikliklər edilməsi haqqında təkliflər referenduma çıxarıla bilməz.
- B. Azərbaycan Respublikası Konstitusiyasının 3-cü fəslində nəzərdə tutulmuş insan və vətəndaş hüquqları və azadlıqlarının ləğvi və ya Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulduğundan daha artıq dərəcədə məhdudlaşdırılması haqqında təkliflər referenduma çıxarıla bilməz.
- C. Azərbaycan Respublikası Konstitusiyasının 1-ci, 2-ci, 6-cı, 7-ci, 8-ci və 21-ci maddələrinin ləğv edilməsi haqqında təkliflər referenduma çıxarıla bilməz.
- D. Azərbaycan Respublikası Konstitusiyasının dövlət rəmzlərinə dair müddəalar dəyişikliklər edilməsi haqqında təkliflər referenduma çıxarıla bilməz.

Download: http://Yusif.Az

Sual **22**
Cavablandırılmayıb
0 - 1
İşarə

“Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən ali kateqoriya dövlət orqanıdır:

Cavablardan birini seçin:

- A. Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi
- B. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi
- C. Azərbaycan Respublikası Məhkəmə-hüquq şurasının Aparatı
- D. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti

Sual **23**
Cavablandırılmayıb
0 - 1
İşarə

“Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən düzgün ***deyil***:

Cavablardan birini seçin:

- A. İnzibati vəzifələrin üçüncü təsnifatı üzrə ən yüksək ixtisas dərəcəsi dövlət qulluğunun baş müşaviridir.
- B. İnzibati vəzifələrin ali təsnifatı üzrə ən yüksək ixtisas dərəcəsi həqiqi baş müşaviridir.
- C. İnzibati vəzifələrin ikinci təsnifatı üzrə ən aşağı ixtisas dərəcəsi dövlət qulluğunun baş müşaviridir.
- D. İnzibati vəzifələrin dördüncü təsnifatı üzrə ən aşağı ixtisas dərəcəsi 1-ci dərəcə dövlət qulluqçusudur.

Sual **24**
Cavablandırılmayıb
0 - 1
İşarə

“Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən dövlət qulluqçusunun yardımçı vəzifələrin dördüncü təsnifatı üzrə növbəti ixtisas dərəcəsi alması üçün qulluq müddəti təşkil etməlidir:

Cavablardan birini seçin:

- A. ixtisas dərəcəsində ardıcıl olaraq 3 il
- B. ixtisas dərəcəsində ardıcıl olaraq 2 il
- C. ixtisas dərəcəsində ardıcıl olaraq 1 il
- D. ixtisas dərəcəsində ardıcıl olaraq 4 il

Sual **25**
Cavablandırılmayıb
0 - 1
İşarə

“Dövlət qulluğu haqqında”Azərbaycan Respublikasının Qanununa əsasən aşağıdakı şərtlərin hansından asılı olaraq şəxsin dövlət qulluğuna qəbul edilmək hüququ vardır?
1. müvafiq vəzifənin tələblərinə uyğun peşə hazırlığından
2. dinə münasibətindən
3. yaşayış yerindən
4. ictimai və digər birliklərə mənsubiyyətindən
5. yaşından

Cavablardan birini seçin:

- A. 1, 3
- B. 2, 4
- C. 1, 5
- D. 3, 5

Download: http://Yusif.Az

Sual 26
Cavablandırılmayıb
0 - 1
İşarə

"Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən intizam icraatı zamanı dövlət qulluqçusu tərəfindən yol verilən hüquq pozuntusunda cinayət tərkibinin əlamətləri aşkar edildikdə, həmin əlamətləri aşkar etmiş dövlət orqanının rəhbəri bu barədə məlumat verməlidir:

Cavablardan birini seçin:

- A. cinayyət prosesini həyata keçirən orqana
- B. Yalnız istintaq orqanlarına
- C. cinayət təqibi orqanına
- D. Azərbaycan Respublikası Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyaya

Sual 27
Cavablandırılmayıb
0 - 1
İşarə

"Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən maliyyə xarakterli tələblərə əməl etməyən vəzifəli şəxslər barəsində hansı tədbirlər həyata keçirilə bilər?
1. həmin şəxslər qanunvericiliklə müəyyən edilmiş qaydada xəbərdar edilə bilər
2. həmin şəxslər intizam məsuliyyətinə cəlb oluna bilər
3. bu hal müntəzəm davam edərsə, cinayət tərkibi yarada bilər
4. bu şəxslər barəsində rəsmi dövlət qəzetində məlumat dərc etdirilə bilər
5. həmin şəxslər maddi məsuliyyətə cəlb oluna bilər

Cavablardan birini seçin:

- A. 2, 5
- B. 1, 2
- C. 2, 4
- D. 3, 5

Sual 28
Cavablandırılmayıb
0 - 1
İşarə

"Məlumat azadlığı haqqında" Azərbaycan Respublikasının qanuna əsasən, şəxsiyyətin onun haqqında məlumatın toplanılması ilə əlaqədar təsbit olunmuş hüquqlarına münasibətdə istisna kimi müəyyən edilmişdir:

Cavablardan birini seçin:

- A. Qanunla müəyyən edilmiş qaydada əməliyyat axtarış fəaliyyəti zamanı əldə edilən məlumatlar, habelə cinayət işinin istintaqı ilə əlaqədar toplanılan məlumatlar;
- B. Əməliyyat-axtarış tədbirləri keçirilməsi nəticəsində əldə edilən məlumatlar, habelə şəxsiyyətin dini və etnik mənsubiyyəti barədə məlumatlar;
- C. qanunla müəyyən edilmiş hallarda ibtidai araşdırma zamanı əldə edilən məlumatlar, habelə şəxsiyyətin dini etiqadı barədə əldə edilən məlumatlar.
- D. cinayət təqibinin həyata keçirilməsi ilə bağlı əldə edilən məlumatlar, habelə şəxsiyyət haqqında toplanılmış məlumatlar;

Download: http://Yusif.Az

Sual **29**
Cavablandırılmayıb
0 - 1
İşarə

"Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının qanununa əsasən, aşağıda göstərilən anlayışlardan birinin anlamı düzgün ifadə edilmişdir:

Cavablardan birini seçin:

- A. Şikayət dedikdə pozulmuş hüquq və azadlıqların bərpası və müdafiəsi ilə bağlı tələbləri nəzərdə tutan müraciət anlaşılır.
- B. Kollektiv müraciət dedikdə hər hansı məsələyə dair iki və daha çox şəxsin birgə müraciəti və yaxud ictimai iştirakçılığın təmin edilməsi əlaqədar olan müraciət anlaşılır.
- C. Yazılı müraciət dedikdə kağız üzərində və ya elektron formada tərtib edilmiş müvafiq formalı ərizə anlaşılır.
- D. Ərizə dedikdə hüquq və ya mənafelərin həyata keçirilməsi ilə bağlı tələbləri nəzərdə tutan müraciət anlaşılır.

Sual **30**
Cavablandırılmayıb
0 - 1
İşarə

"Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən əlavə öyrənilməsi və yoxlanılması tələb edilməyən müraciətə baxılmalıdır:

Cavablardan birini seçin:

- A. ən geci 24 saat keçənədək
- B. ən geci 30 iş günü müddətində
- C. ən geci 15 iş günü müddətində
- D. ən geci 20 iş günü müddətində

Sual **31**
Cavablandırılmayıb
0 - 1
İşarə

"Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununa əsasən insan hüquqlarının pozulmasına dair şikayətlə bağlı qərarın qəbul edilməsi ilə əlaqədar təsbit olunmuş müddəalara uyğun olanı(ları) seçin:
1. Müvəkkil şikayətin baxılmaq üçün qəbul edilməsi barədə qərar qəbul edə bilər.
2. Müvəkkil cinayətin əlamətlərini aşkar etdikdə müvafiq orqanlara cinayət işinin başlanması üçün müraciət edilməsi barədə qərar qəbul edir.
3. Müvəkkil şikayətin baxılmasından imtina edilməsi barədə qərar qəbul edə bilər.
4. Müvəkkil şikayətə baxılmasından imtina etdiyi halda ərizəçiyə 10 gün müddətində yazılı şəkildə əsaslandırılmış cavab verir.
5. Müvəkkil insan hüquqlarının pozulmasına dair şikayətdə əks etdirilmiş hallar barəsində şikayət verilən orqanın və ya vəzifəli şəxsin həmin şikayətlə bağlı mülahizələrini öyrənmir.

Cavablardan birini seçin:

- A. 3, 4, 5
- B. 1, 2, 3
- C. 1, 3, 4
- D. 2, 3, 5

Download: http://Yusif.Az

Sual 32
Cavablandırılmayıb
0 - 1
İşarə

“Elektron imza və elektron sənəd haqqında” Azərbaycan Respublikası Qanununa əsasən elektron sənəd nədir?

Cavablardan birini seçin:

- A. informasiya sistemində elektron məlumatların nizamlanmış hərəkəti ilə bağlı informasiyanı əks etdirən məlumat
- B. informasiya sistemində istifadə üçün elektron formada təqdim edilən və elektron imza ilə təsdiq olunmuş sənəd
- C. mülkiyyətçinin müəyyən etdiyi və ya iştirakçılar arasında müqavilə ilə razılaşdırılmış məhdud saylı istifadəçiləri olan informasiyanı əks etdirən sənəd
- D. müəyyən olunmuş tələblərə uyğunluğu sertifikatlaşdırma qaydaları əsasında təsdiq edilmiş elektron imza vasitələri

Sual 33
Cavablandırılmayıb
0 - 1
İşarə

“Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat”a əsasən sənədlərin mətnləri bir qayda olaraq neçə hissədən ibarət olur?

Cavablardan birini seçin:

- A. 2
- B. 4
- C. 3
- D. 1

Sual 34
Cavablandırılmayıb
0 - 1
İşarə

“Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat”a əsasən hansı vəzifə adının yazılışı düzgün ***deyil***?

Cavablardan birini seçin:

- A. Azərbaycan Respublikasının Maliyyə naziri
- B. Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti
- C. Azərbaycan Respublikasının Dövlət Sığorta Kommersiya Şirkətinin sədri
- D. Azərbaycan Respublikasının Baş naziri

Download: http://Yusif.Az

Sual 35
Cavablandırılmayıb
0 - 1
İşarə

“Azərbaycan Respublikası Dövlət bayrağının istifadəsi qaydaları haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən Azərbaycan Respublikasının Dövlət bayrağına hörmət göstərilməsi ilə bağlı vəzifələrə aid ***deyil***:

Cavablardan birini seçin:

A. Azərbaycan Respublikasının ərazisində olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının Dövlət bayrağına hörmətlə yanaşmalıdırlar.

B. Azərbaycan Respublikası onun ərazisindən kənarda Azərbaycan Respublikasının Dövlət bayrağı barədə təhqiredici hərəkətlərin qarşısının alınması məqsədilə beynəlxalq hüquq normalarına uyğun olaraq tədbirlər görür.

C. Azərbaycan Respublikasının vətəndaşları Azərbaycan Respublikasının Dövlət bayrağına hörmətlə yanaşmalıdırlar.

D. Azərbaycan Respublikasında qeyri-hökümət təşkilatları gənc nəsil arasında Azərbaycan Respublikası Dövlət bayrağının mahiyyətinin və əhəmiyyətinin geniş təbliğ olunması, onların Azərbaycan Respublikasının Dövlət bayrağına hörmət ruhunda tərbiyə edilməsi məqsədilə tədbirlər görürlər.

Sual 36
Cavablandırılmayıb
0 - 1
İşarə

Azərbaycan Respublikasının Konstitusiyasında nikah hüququ ilə bağlı təsbit olunmuş müddəalara uyğundur:

Cavablardan birini seçin:

A. Uşaqlara qayğı göstərmək valideynlərin hüququ, onları tərbiyə etmək isə borcudur.

B. Valideynlərin istəyinə uyğun tərbiyə almaq və qayğı görmək uşaqların həm hüququ, həm də borcudur.

C. Uşaqlara qayğı göstərmək, onları tərbiyə etmək valideynlərin həm hüququ, həm də borcudur.

D. Uşaqlara qayğı göstərmək valideynlərin borcudur, onları istədikləri kimi tərbiyə etmək valideynlərin hüququdur.

Sual 37
Cavablandırılmayıb
0 - 1
İşarə

Azərbaycan Respublikasının Konstitusiyasına əsasən Milli Məclis hansı məsələyə dair ümumi qaydalar müəyyən edərkən 63 səs çoxluğu ilə qanunlar qəbul ***etmir***?

Cavablardan birini seçin:

A. Azərbaycan Respublikası Prezidentinin seçkiləri

B. vergilər, rüsumlar və ödənişlər

C. nümayəndəlik və vərəsəlik

D. dövlət qulluğu

Download: http://Yusif.Az

Sual 38
Cavablandırılmayıb
0 - 1
İşarə

“Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının qanuna əsasən, dövlət qulluğunun əsas vəzifələri qismində göstərilə ***bilməz***:

Cavablardan birini seçin:

- A. dövlət orqanlarının səlahiyyəti hüdudlarında qərarların hazırlanması və qəbul edilməsi;
- B. Azərbaycan Respublikasının Konstitusiyası və digər qanunvericilik aktları əsasında vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi;
- C. dövlət orqanının rəhbərlərin öz səlahiyyəti hüdudunda verdikləri əmrlərin, sərəncamların və göstərişlərin qanunvericilik aktlarına uyğun yerinə yetirilməsi;
- D. dövlət orqanlarının səmərəli fəaliyyətinin və dövlət qulluqçuları tərəfindən vəzifə səlahiyyətlərinin yerinə yetirilməsinin təmin edilməsi;

Sual 39
Cavablandırılmayıb
0 - 1
İşarə

“Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən “*dövlət qulluğu vəzifəsi*” anlayışı düzgün verilmişdir:

Cavablardan birini seçin:

- A. dövlət mülkiyyətində olan qurumlarda daimi və ya müvəqqəti təşkilati-sərəncamverici və ya inzibati-təsərrüfat vəzifələri
- B. dövlət təşkilatının normativ aktlarla müəyyən edilən struktur quruluşu
- C. dövlət orqanının normativ aktları ilə müəyyən edilən struktur quruluşu və ştat cədvəlinə uyğun olan ştat vahidi
- D. dövlət mülkiyyətində olan təşkilatın normativ aktlarla müəyyən edilən struktur quruluşu və ştat cədvəlinə uyğun olan ştat vahidi

Sual 40
Cavablandırılmayıb
0 - 1
İşarə

“Dövlət orqanlarında dövlət qulluqçusuna dövlət qulluğunda qulluq stajına görə əlavə haqqın məbləğlərinin müəyyənləşdirilməsi Qaydaları”na əsasən düzgün ***deyil***:

Cavablardan birini seçin:

- A. Dövlət qulluqçusuna dövlət qulluğunda qulluq stajına görə əlavə haqq aylıq dövlət məvacibinə nisbətən faizlə müəyyən edilir və hər ay ödənilir.
- B. “Dövlət orqanlarında dövlət qulluqçusuna dövlət qulluğunda qulluq stajına görə əlavə haqqın məbləğlərinin müəyyənləşdirilməsi Qaydaları” “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən hazırlanmışdır.
- C. Dövlət qulluqçularına qulluq stajına görə aylıq vəzifə maaşına müəyyən edilmiş əlavələrin ödənilməsi məqsədi ilə hər il növbəti il üçün təsdiq olunan dövlət büdcəsində bu orqanlarda dövlət qulluqçuları üçün müəyyən olunmuş aylıq əmək haqqı fondunun (vəzifə maaşına əlavələr istisna olunmaqla) 2 misli həcmində əlavə vəsaitlər nəzərdə tutulur.
- D. Dövlət qulluqçusuna dövlət qulluğunda qulluq stajına görə əlavə haqq qulluq keçdiyi dövlət orqanı üçün dövlət büdcəsində nəzərdə tutulmuş əmək haqqı fondu hesabına verilir.

Download: http://Yusif.Az

Sual **41**

Cavablandırılmayıb

0 - 1

İşarə

“Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının qanuna əsasən, hakimlər korrupsiya hüquqpozması törətdikdə Məhkəmə-Hüquq Şurasına nə barədə məlumat verilir:

Cavablardan birini seçin:

- A. hakimin kənarlaşdırılması məsələsi
- B. inzibati tənbehin tətbiqi məsələsi
- C. intizam tənbehinin tətbiqi məsələsi
- D. hakimin müvafiq məsuliyyətə cəlb edilməsi məsələsi

Sual **42**

Cavablandırılmayıb

0 - 1

İşarə

“Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununa əsasən Milli Məclis tərəfindən qəbul edilən hüquqi aktlara aid ***deyil***:

1. qanun
2. sərəncam
3. qərar
4. fərman

Cavablardan birini seçin:

- A. 1, 3
- B. 2, 3
- C. 1, 4
- D. 2, 4

Sual **43**

Cavablandırılmayıb

0 - 1

İşarə

“Azərbaycan Respublikasında dövlət dili haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən inzibati ərazi vahidlərinin adları dövlət dili ilə yanaşı xarici dillərdə də yazıldığı hallarda inzibati ərazi vahidinin adı hansı qaydada yazılır?

Cavablardan birini seçin:

- A. dövlət dilində şaquli şəkildə xarici dildə isə üfuqi şəkildə verilməlidir
- B. əvvəlcə dövlət dilində və ondan sonra xarici dildə verilməlidir
- C. əvvəlcə xarici dildə və ondan sonra dövlət dilində verilməlidir
- D. həm xarici dildə, həm də dövlət dilində şaquli şəkildə eyni sırada verilməlidir

Sual **44**

Cavablandırılmayıb

0 - 1

İşarə

Azərbaycan Respublikasının “İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında” AR-nın Konstitusiya qanununa əsasən Azərbaycan Respublikasının insan hüquqları üzrə Müvəkkili (ombudsman) hansı Konvensiyanın Fakültativ Protokolunda nəzərdə tutulmuş milli preventiv mexanizmin funksiyalarını həyata keçirir?

Cavablardan birini seçin:

- A. “İnsan hüquq və azadlıqlarının müdafiəsi haqqında” Konvensiya
- B. “Əsas insan hüquq və azadlıqları haqqında” Konvensiya
- C. “Mülki və siyasi hüquqlar haqqında” Beynəlxaq Pakt
- D. “İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə” Konvensiya

Download: http://Yusif.Az

Sual 45
Cavablandırılmayıb
0 - 1
İşarə

“Elektron imza və elektron sənəd haqqında” Azərbaycan Respublikası Qanununa əsasən elektron sənədə dair tələblərlə bağlı doğrudur:
1. elektron sənəd texniki və proqram vasitələrinin köməyi ilə yaradılmalı, saxlanılmalı, emal edilməli, ötürülməli və qəbul edilməlidir;
2. elektron sənəd identikləşdirməyə imkan verən rekvizitlərə malik olmalıdır
3. elektron sənəd müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş quruluşa malik olmalıdır
4. elektron sənəd texniki və proqram vasitələrinin köməyi ilə əyani qavranılan (vizual) şəkildə təqdim olunmalıdır
5. elektron sənədin identikləşdirilməsi, həqiqiliyinin müəyyənləşdirilməsi üçün zəruri olan rekvizitlərin siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Cavablardan birini seçin:
- A. 1, 3, 5
- B. 2, 4, 5
- C. 2, 3, 4
- D. 1, 2, 4

Sual 46
Cavablandırılmayıb
0 - 1
İşarə

“Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat”a əsasən arayış və məlumat vərəqəsinə dair verilənlərdən hansılar düzgündür?
1. Arayışın və məlumat vərəqəsinin mətni iki hissədən ibarət olmalıdır.
2. Arayışın və məlumat vərəqəsinin mətni üç hissədən ibarət olmalıdır.
3. Arayışın və məlumat vərəqəsinin birinci hissəsində sənədin hazırlanması üçün əsas götürülən faktlar, ikinci hissəsində nəticələr, üçüncü hissəsində təkliflər yazılır.
4. Arayış və məlumat vərəqəsində verilən məlumatın aid olduğu tarix və dövr başlığa daxil edilmir.
5. Arayışın və məlumat vərəqəsinin birinci hissəsində sənədin hazırlanması üçün əsas götürülən faktlar, ikinci hissəsində nəticələr və təkliflər yazılır.
6. Arayışlar və məlumat vərəqələri təşkilatın və ya struktur bölməsinin rəhbəri tərəfindən imzalanır.
7. Arayışlar və məlumat vərəqələri onu hazırlamış şəxs tərəfindən imzalanır.

Cavablardan birini seçin:
- A. 1, 4, 6
- B. 2, 3, 7
- C. 2, 3, 6
- D. 1, 5, 6

Download: http://Yusif.Az

Sual **47**
Cavablandırılmayıb
0 - 1
İşarə

"Azərbaycan Respublikasının Dövlət himni haqqında Əsasnamə"nin dəqiq yerinə yetirilməsinə nəzarət etmək həvalə olunmuşdur:

Cavablardan birini seçin:

- A. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə, Azərbaycan Respublikasının Milli Məclisinə və Dövlət Təhlükəsizlik Xitmətinin əməkdaşlarına
- B. dövlət orqanlarının, müəssisələrin, idarələrin, təşkilatların, siyasi partiyaların, ictimai birliklərin, həmkarlar ittifaqlarının və digər ictimai qurumların rəhbərlərinə
- C. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə
- D. Azərbaycan Respublikasının Milli Məclisinə, Azərbaycan Respublikasının Konstitusiya məhkəməsinə və icra hakimiyyəti orqanlarının nümayəndələrinə

Sual **48**
Cavablandırılmayıb
0 - 2
İşarə

Azərbaycan Respublikasının Konstitusiyasına görə iqtisadi inkişaf və dövlətlə bağlı müddəalardan düzgün olan(lar)ı seçin:

Cavablardan birini və ya bir neçəsini seçin:

- 1. Azərbaycan dövləti xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsi qayğısına qalır;
- 2. Azərbaycan dövləti bazar münasibətləri əsasında sosial yönümlü iqtisadiyyatın inkişafına şərait yaradır;
- 3. Azərbaycan dövləti azad sahibkarlığa təminat verir;
- 4. Hər kəs qanunla qadağan edilməmiş digər iqtisadi fəaliyyət növü ilə məşğul ola bilər;
- 5. Azərbaycan Respublikasında iqtisadiyyatın inkişafı xüsusi mülkiyyət növünə əsaslanaraq xalqın rifahının yüksəldilməsinə xidmət edir;
- 6. Azərbaycan dövləti iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol vermir.

Sual **49**
Cavablandırılmayıb
0 - 2
İşarə

Azərbaycan Respublikasının Konstitusiyasına əsasən Milli Məclisin sədri növbədənkənar sessiyaları çağırır:

Cavablardan birini və ya bir neçəsini seçin:

- 1. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin tələbi əsasında
- 2. Azərbaycan Respublikası Ali Məhkəməsinin tələbi əsasında
- 3. Milli Məclisin 42 deputatının tələbi əsasında
- 4. Milli Məclisin 40 deputatının tələbi əsasında
- 5. Azərbaycan Respublikasının Prokurorluğunun tələbi əsasında
- 6. Azərbaycan Respublikasının Prezidentinin tələbi əsasında

Download: http://Yusif.Az

Sual 50
Cavablandırılmayıb
0 - 2
İşarə

Azərbaycan Respublikasının Konstitusiyasına görə bələdiyyələrin səlahiyyəti ilə bağlı düzgün müddəaları seçin:

Cavablardan birini və ya bir neçəsini seçin:

- 1. Bələdiyyə üzvlərinin səlahiyyətlərinin itirilməsi bələdiyyə iclasında həll edilən məsələyə aiddir;
- 2. Bələdiyyəyə verilmiş əlavə səlahiyyətlərin həyata keçirilməsinə dövlət hakimiyyət orqanları nəzarət edirlər;
- 3. Bələdiyyə üzvlərinin səlahiyyətlərinin tanınması bələdiyyə iclasında həll edilən məsələyə aiddir;
- 4. Bələdiyyənin reqlamenti qanunla müəyyən edilmiş qaydada təsdiq edilir;
- 5. Bələdiyyələrə qanunvericilik və icra hakimiyyətləri tərəfindən əlavə səlahiyyətlər qanunla müəyyən edilən hallarda verilə bilər.
- 6. Bələdiyyə mülkiyyətinə sahiblik, ondan istifadə və onun barəsində sərəncam bələdiyyənin səlahiyyətinə aid edilmişdir;

Sual 51
Cavablandırılmayıb
0 - 2
İşarə

"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən dövlət qulluqçusunun əlavə təhsil alması üçün hansılar əsasdır?

Cavablardan birini və ya bir neçəsini seçin:

- 1. dövlət qulluqçusunun dövlət qulluğunda olmasının müəyyən yaş həddinə çatması
- 2. dövlət orqanının səlahiyyət hüdudlarının genişlənməsi
- 3. dövlət qulluqçusunun dövlət qulluğunun ehtiyat kadrlarının siyahısına daxil edilməsi
- 4. dövlət qulluqçusunun şəxsi təşəbbüsü
- 5. dövlət qulluqçusunun dövlət qulluğunda daha yüksək vəzifəyə təyin edilməsi
- 6. dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsinin nəticəsi

Sual 52
Cavablandırılmayıb
0 - 2
İşarə

"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının qanuna əsasən, müvəqqəti olaraq başqa yerə qulluğa keçirilən dövlət qulluqçusuna aid edilən təminatlardan yanlış olanı(ları) seçin:

Cavablardan birini və ya bir neçəsini seçin:

- 1. Həmin dövlət qulluqçusu başqa yerə keçirildiyindən əvvəl qulluq keçdiyi yerdəki yaşayış sahəsi saxlanılmır.
- 2. Həmin dövlət qulluqçusunun ailəsini özü ilə aparmağa ixtiyarı vardır.
- 3. Həmin dövlət qulluqçusunun ailə üzvlərinə işə düzəlməkdə kömək göstərilir.
- 4. Həmin dövlət qulluqçusunun başqa yerə qulluğa keçirilməklə bağlı olan digər məsələlər Azərbaycan Respublikasının Əmək Məcəlləsi ilə tənzim olunur.
- 5. Həmin dövlət qulluqçusuna onun yaşayış şəraitinə uyğun olan məişət ləvazimatı ilə komplektləşdirilmiş xidməti mənzil verilir.
- 6. Həmin dövlət qulluqçusuna göndərən orqanın vəsaiti hesabına vəzifə maaşının 2 misli miqdarında haqqı ödənilən tibbi xidmət göstərilir.

Download: http://Yusif.Az

Sual **53**
Cavablandırılmayıb
0 - 2
İşarə

“Dövlət qulluqçularının etik davranış qaydaları haqqında” Azərbaycan Respublikası Qanununun məqsədlərinə aid ***deyil***:

Cavablardan birini və ya bir neçəsini seçin:

- 1. vətəndaşların dövlət orqanlarına və dövlət qulluqçularına etimadının yüksəldilməsi
- 2. dövlət qulluqçularının rotasiyasının təmin edilməsi
- 3. dövlət orqanlarının və dövlət qulluğunun nüfuzunun artırılması
- 4. dövlət orqanlarında korrupsiyanın və dövlət qulluqçularının fəaliyyətində maraqların toqquşmasının qarşısının alınması
- 5. dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsi qaydalarının müəyyən edilməsi

Sual **54**
Cavablandırılmayıb
0 - 2
İşarə

“İnzibati icraat haqqında” Azərbaycan Respublikasının qanununa əsasən inzibati orqan hansı hallarda hüquqi yardım göstərməkdən imtina edə bilər:

Cavablardan birini və ya bir neçəsini seçin:

- 1. Hüquqi yardımın göstərilməsi onun öz funksional vəzifələrinin yerinə yetirməsinə əhəmiyyətli dərəcədə mane olduqda
- 2. Hüquqi yardım qaydasında tələb olunan tədbirlərin həyata keçirilməsi onun qanunvericiliklə müəyyən olunmuş səlahiyyətlərinə aid olmadıqda;
- 3. Hüquqi yardımın göstərilməsi üçün qanunvericilikdən irəli gələn tələblərin yerinə yetirilməməsi və ya lazımınca yerinə yetirilməməsi müəyyən olunduqda.
- 4. Hüquqi yardım qaydasında tələb olunan sənədlər qanunla qorunan bu və ya digər sirri təşkil etdikdə
- 5. Hüquqi yardım qaydasında həyata keçirilməsi zəruri olan tədbirlərin tətbiqi şərtləri yaranmadıqda;
- 6. Hüquqi xarakterli səbəblər üzündən hər hansı hərəkəti müstəqil həyata keçirmək iqtidarında olmadığı hallarda;

Sual **55**
Cavablandırılmayıb
0 - 2
İşarə

“Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikası Qanununa əsasən məhkəmə sistemi ilə bağlı doğrudur:

Cavablardan birini və ya bir neçəsini seçin:

- 1. Azərbaycan Respublikasının hər bir məhkəməsinin Azərbaycan Respublikası Dövlət gerbinin təsviri olan möhürü vardır
- 2. Azərbaycan Respublikasının hər bir məhkəməsi Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəhbərlik etdiyi məhkəmə sisteminin tərkib hissəsidir.
- 3. Azərbaycan Respublikasının məhkəmə sisteminə daxil olan məhkəmələrin hakimlərinin ümumi sayı Ali Məhkəməsi tərəfindən müəyyən edilir.
- 4. Azərbaycan Respublikasının məhkəmə sisteminə daxil olan məhkəmələrin hakimlərinin ümumi sayı Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olaraq müəyyənləşdirilir
- 5. Azərbaycan Respublikasının hər bir məhkəməsi müstəqil hüquqi şəxsdir

Download: http://Yusif.Az

Sual 56
Cavablandırılmayıb
0 - 1
İşarə

Şəkildə verilmiş lent qrupu hansı lent tabına aiddir (MS Word 2010)?




Cavablardan birini seçin:

- A. Insert (Вставка/Əlavə et)
- B. Page Layout (Разметка страницы/Səhifə Düzəni)
- C. Review (Рецензирование/İcmal)
- D. References (Ссылки/İstinadlar)
- E. Home (Главная/Ev)

Sual 57
Cavablandırılmayıb
0 - 1
İşarə

Verilənlərdən hansı xananın parametrlərinə aid ***deyil*** (MS Excel 2010)?

Cavablardan birini seçin:

- A. tərkibi
- B. növü
- C. ünvanı
- D. qiyməti
- E. forması

Sual 58
Cavablandırılmayıb
0 - 1
İşarə

Şəkildə oxla göstərilən əmr nə üçün nəzərdə tutulub (MS PowerPoint 2010)?




Cavablardan birini seçin:

- A. slayddakı dəyişiklikləri ləğv edərək ilkin vəziyyəti bərpa etmək üçün
- B. cari slaydın seçilmiş düzən formasına uyğun dəyişdirmək üçün
- C. təqdimata yeni slayd əlavə etmək üçün
- D. təqdimatın bütün slaydlarına tərtibat vermək üçün
- E. təqdimatın slaydlarını bölmələrlə təşkil etmə üçün

Download: http://Yusif.Az

Sual 59
Cavablandırılmayıb
0 - 1
İşarə

Goto Next Record (Sıradakı Yazıya Keç), Goto Previous Record (Öncəki Yazıya Keç) əməliyyatlarını yerinə yetirən düymələri hazırlamaq üçün Command Button Wizard (Əmr Düyməsi Ustası) dialoq pəncərəsindəki Categories (Kateqoriyalar) siyahısından hansı parametr seçilir (MS Access 2010)?




Cavablardan birini seçin:

- A. Report Operations (Hesabat Əməliyyatları)
- B. Record Operations (Yazı Əməliyyatları)
- C. Record Navigation (Yazı Keçidi)
- D. Miscellaneous (Qarışıq)
- E. Application (Proqram)

Sual 60
Cavablandırılmayıb
0 - 1
İşarə

Bu hansı şəbəkə topologiyasıdır?



Cavablardan birini seçin:

- A. halqa
- B. şin
- C. ulduz
- D. halqa-ulduz
- E. ağac

Download: http://Yusif.Az

Sual **61**
Cavablandırılmayıb
0 - 1
İşarə

Elektron imza növlərindən biridir?

Cavablardan birini seçin:
- A. kompüterdə saxlanılan istənilən sənədə daxil olma şifrəsi
- B. Windows əməliyyat sisteminə daxil olma şifrəsi
- C. kompüterin açılış şifrəsi
- D. hər hansı bir şəxsin imzası
- E. rəqəmsal imza

Sual **62**
Cavablandırılmayıb
0 - 1
İşarə

Bir təşkilat daxilində qurulan şəbəkə adlanır:

Cavablardan birini seçin:
- A. İntranet
- B. Ekstranet
- C. Arpanet
- D. İnternet
- E. Ekstraset

Sual **63**
Cavablandırılmayıb
0 - 1
İşarə

Səs siqnallarının fərdi kompüterin yaddaşında ikilik koda çevrilməsi prosesinin düzgün ardıcıllığını göstərin:

Cavablardan birini seçin:
- A. mikrofon – dəyişkən elektrik cərəyanı – ikilik kod – əməli yaddaş
- B. mikrofon – səs siqnalı – səs kartı – əməli yaddaş
- C. səs siqnalı – mikrofon – səs kartı – əməli yaddaş
- D. səs siqnalı – mikrofon – əməli yaddaş – səs kartı
- E. səs kartı – mikrofon – səs siqnalı – əməli yaddaş

Sual **64**
Cavablandırılmayıb
0 - 1
İşarə

Diski formatlaşdırma nəticəsində nə baş verir?

Cavablardan birini seçin:
- A. diskdə olan faylların yerləri dəyişdirilir
- B. diskdə olan fayllar silinir
- C. disk sahəsi artır
- D. diskdə olan faylların surətləri yaradılır
- E. diskdə olan fayllar yeniləri ilə əvəzlənir

Download: http://Yusif.Az

Sual **65**

Cavablandırılmayıb

0 - 1

İşarə

MS Word 2010 proqramının kömək məlumatlarının çağırılması üçün hansı düymə kliklənir?

Cavablardan birini seçin:

A. 

B. 

C. 

D. 



E. 

Sual **66**

Cavablandırılmayıb

0 - 1

İşarə

Yazılmış mətnin bütün şriftlərinin ölçüsünün eyni zamanda dəyişdirmək üçün nə etmək lazımdır (MS Word 2010)?

Cavablardan birini seçin:

A. ayrı-ayrılıqda hər səhifədə müvafiq şrift ölçüsünü təyin etmək

B. şriftin ölçüsünü təyin edib, sonra mətni bütünlükdə seçmək

C. şriftlərin ölçüsünü yalnız mətni daxil etməzdən əvvəl təyin etmək olar

D. mətni bütünlüklə seçib müvafiq şrift ölçüsünü təyin etmək

E. abzasdakı şriftlərin hər birinin müvafiq ölçüsünü təyin etmək

Sual **67**

Cavablandırılmayıb

0 - 1

İşarə

Şəkildə verilmiş lent qrupu hansı lent tabına aiddir (MS Excel 2010)?





Cavablardan birini seçin:

A. Review (Рецензирование/İcmal)

B. Home (Главная/Ev)

C. Design (Конструктор/Tərtibat)

D. Insert (Вставка/Əlavə et)

E. Page Layout (Разметка страницы/Səhifə Düzəni)

Download: http://Yusif.Az

Sual **68**

Cavablandırılmayıb

0 - 2

İşarə

Kompüterin daxili yaddaş qurğularına aiddir:

Cavablardan birini və ya bir neçəsini seçin:

- [ ] 1. mübadilə buferi
- [ ] 2. daimi yaddaş
- [ ] 3. strimmer
- [ ] 4. bərk disk
- [ ] 5. əməli yaddaş
- [ ] 6. keş-yaddaş
- [ ] 7. CMOS-yaddaş
- [ ] 8. virtual yaddaş

Sual **69**

Cavablandırılmayıb

0 - 2

İşarə

Kompüter şəbəkəsinin bütün xarakteristik əlamətlərini müəyyən edin:

Cavablardan birini və ya bir neçəsini seçin:

- [ ] 1. şəbəkədə istənilən iki kompüter arasında verilənlər mübadiləsi mümkündür
- [ ] 2. mütləq server olmalıdır
- [ ] 3. kompüter şəbəkəsi xüsusi avadanlıqla birləşdirilmiş kompüterlər qrupudur
- [ ] 4. kompüterləri rabitə yaradan aralıq düyün nöqtələrinin köməyi ilə birləşdirmək mümkündür
- [ ] 5. kompüter şəbəkəsi oxşar əməliyyatlar aparan bir neçə kompüterdir
- [ ] 6. kompüterlər bilavasitə bir-birilə birləşdirilməlidir

Sual **70**

Cavablandırılmayıb

0 - 2

İşarə

Cədvəldə H3 xanasında hesablamanın nəticəsini tapın (MS Excel 2010):

| | D | E | F | G | H |
|---|---|---|---|---|---|
| 3 | 35 | 10 | =SUM(D3:D6)-E3 | 4 | =F3*G3 |
| 4 | 25 | 15 | | 3 | |
| 5 | 10 | 25 | | 6 | |
| 6 | 20 | 35 | | 8 | |

Cavab:

Download: http://Yusif.Az

Sual 71
Cavablandırılmayıb
0 - 1
İşarə

Ayşə, Kəmalə, Lalə, Hicran adlı dörd rəfiqə küçədə dairəvi dayanaraq söhbət edirlər. Onlar hər biri fərqli rəngdə paltar geyinib. Ayşə və Kəmalə sarı rəngdə paltar geyinməyiblər. Qara paltarlı qız qırmızı paltarlı qızla Kəmalənin arasında dayanıb. Sarı paltarlı qız boz paltarlı qızla Hicranın arasında dayanıb.
Qızların hansı rəngdə paltar geyindiklərini tapın və uyğunluğu müəyyən edin:

| Qızların adı | Geyindiyi paltarın rəngi |
|---|---|
| 1. Lalə<br>2. Hicran<br>3. Kəmalə | a. qara<br>b. boz<br>c. qırmızı<br>d. sarı |

Cavablardan birini seçin:
- A. 1 – c; 2 – d; 3 – a
- B. 1 – c; 2 – b; 3 – d
- C. 1 – d; 2 – c; 3 – b
- D. 1 – b; 2 – a; 3 – c
- E. 1 – a; 2 – c; 3 – b

Sual 72
Cavablandırılmayıb
0 - 1
İşarə

Verilən sözlər cütünə analoji əlaqəli olan natamam cütü tamamlayın:
il – ay
bina – ?

Cavablardan birini seçin:
- A. mərtəbə
- B. layihə
- C. məhəllə
- D. fasad
- E. dam

Sual 73
Cavablandırılmayıb
0 - 1
İşarə

Aşağıda verilmiş anaqramlardan hansı birinci sözün sonu, ikinci sözün əvvəlidir?
də (...) ən

Cavablardan birini seçin:
- A. tvə
- B. kmi
- C. ryə
- D. snə
- E. nri

Download: http://Yusif.Az

Sual 74
Cavablandırılmayıb
0 - 1
İşarə

“?” işarəsinin yerinə uyğun gələn variantı tapın:

| | | |
|---|---|---|
| səadət | ≡ | 125813 |
| ədalət | | 354986 |
| ətalət | | 715213 |
| tabeli | | 135813 |
| ibadət | | 645213 |

135813 = ?

Cavablardan birini seçin:

- A. tabeli
- B. ətalət
- C. ədalət
- D. səadət
- E. ibadət

Sual 75
Cavablandırılmayıb
0 - 1
İşarə

Açılış formasına uyğun gələn kubları müəyyən edin:




Cavablardan birini seçin:

- A. yalnız 3 və 4
- B. yalnız 2 və 3
- C. hamısı
- D. yalnız 1 və 4
- E. yalnız 1 və 2

Download: http://Yusif.Az

Sual **76**

Cavablandırılmayıb

0 - 1

İşarə

“?” işarələrinin yerinə uyğun gələn variantı tapın:




Cavablardan birini seçin:

A. L; P

B. K; R

C. P; R

D. R; M

E. P; L

Sual **77**

Cavablandırılmayıb

0 - 1

İşarə

Asif, Babək, Rəhim və Elvin məktəbin ən yaxşı xizəkçiləridir. Üç xizəkçidən ibarət komanda düzəltmək və elə etmək gərəkdir ki, Babək hökmən həmin komandalara daxil olsun. Bu üsulla neçə komanda düzəltmək olar?

Cavablardan birini seçin:

A. 5

B. 3

C. 2

D. 1

E. 4

Sual **78**

Cavablandırılmayıb

0 - 1

İşarə

“?” işarəsinin yerinə uyğun gələn ədədi tapın:




Cavablardan birini seçin:

A. 75°

B. 65°

C. 95°

D. 85°

E. 105°

Download: http://Yusif.Az

Sual **79**

Cavablandırılmayıb

0 - 1

İşarə

"?" işarəsinin yerinə uyğun gələn ədədi tapın:




Cavablardan birini seçin:

- A. 190
- B. 43
- C. 100
- D. 232
- E. 73

Sual **80**

Cavablandırılmayıb

0 - 1

İşarə

"?" işarəsinin yerinə uyğun gələn variantı tapın:




Cavablardan birini seçin:

- A. 
- B. 
- C. 
- D. 
- E. 

Download: http://Yusif.Az

Sual **81**

Cavablandırılmayıb

0 - 1

İşarə

“?” işarəsinin yerinə uyğun gələn variantı tapın:




Cavablardan birini seçin:

A. 

B. 

C. 

D. 

E. 

Sual **82**

Cavablandırılmayıb

0 - 1

İşarə

“?” işarəsinin yerinə uyğun gələn variantı tapın:




Cavablardan birini seçin:

A. 

B. 

C. 

D. 

E. 

Download: http://Yusif.Az

Sual 83
Cavablandırılmayıb
0 - 1
İşarə

"?" işarəsinin yerinə uyğun gələn ədədi tapın.

| | | | |
|---|---|---|---|
| 8 | 3 | 5 | 4 |
| 1 | 2 | 6 | 3 |
| 2 | 1 | 1 | 2 |
| 12 | 6 | 7 | ? |

Cavablardan birini seçin:

A. 9

B. 13

C. 11

D. 5

E. 8

Sual 84
Cavablandırılmayıb
0 - 2
İşarə

Toğrul, Adil, Elşən,Vaqif və Anar muzeyin kassasından bilet almaq üçün növbəyə durmuşdular. Vaqif Elşəndən sonra, Adil Anardan əvvəl, Vaqif Adildən əvvəl, Toğrul Anardan əvvəl Adildən sonra növbəyə durmuşdu.
Toğrul, Adil, Elşən, Vaqif və Anarın növbəyə durma ardıcıllığını müəyyən edin:

Adil

Vaqif

Anar

Elşən

Toğrul

Download: http://Yusif.Az

Sual **85**
Cavablandırılmayıb
0 - 1
İşarə

Cümlələrin aşağıda verilmiş ardıcıllığında hansı iki cümlənin bir-biri ilə yerini dəyişdikdə mətn qurulmuş olur?
(I) Akvarium balıqçılığı çox uzun zaman yalnız hobbi olaraq qəbul olunurdu.
(II) Artıq akvariumların təbii şəraitə daha çox oxşaması üçün suyun təmizlənməsində motorlu filtrlərin əvəzinə molyusklardan istifadə edilir.
(III) Sonralar akvariumların təbiətin bir hissəsini canlandıran model olduğu fikri inkişaf etdikcə bu sahə daha ciddi bir iş kimi qəbul edilməyə başlanıldı və təbiətin hər bir elementinin bu modellərdə canlandırılması düşüncəsi meydana gəldi.
(IV) Çünki balıqlardan qalan qida artıqları, həzm olunmayan yemlər və bəzi mikroskopik canlılar molyuskların əsas qidasını təşkil edir.
(V) Beləliklə, molyusklar qidalandıqca akvariumun suyunun təmizlənməsinə kömək edirlər.

Cavablardan birini seçin:
- A. II ilə IV
- B. III ilə V
- C. III ilə IV
- D. II ilə V
- E. II ilə III

Sual **86**
Cavablandırılmayıb
0 - 1
İşarə

"Qışqırmaq – pıçıldamaq" sözləri arasındakı məntiqi əlaqəyə analoji olan variantı tapın:

Cavablardan birini seçin:
- A. danışmaq – izah etmək
- B. qəhqəhə çəkmək – gülümsəmək
- C. baxmaq – oxumaq
- D. dinləmək – qulaq asmaq
- E. duymaq – anlamaq

Sual **87**
Cavablandırılmayıb
0 - 1
İşarə

*"Həftə sonuna qədər davam etməsi gözlənilən iqtisadi böhran səbəbi ilə dünya birjalarının bugünə qədər çəkdiyi ümumi ziyan 100 milyard ABŞ dollarını keçmişdir"* cümləsinə əsasən mühakimələrdən hansı mütləq düzgündür?

Cavablardan birini seçin:
- A. Böhranın bir müddət daha davam edəcəyi proqnozlaşdırılır.
- B. Böhran dövründə dünyadakı bəzi birjalar yüksəliş edərkən, bəziləri tənəzzül etmişdir.
- C. Birjaların növbəti həftədən sürətli yüksəlişi gözlənilir.
- D. Böhran dövründə ən çox ziyan iqtisadiyyatı güclü olan ölkələrin birjalarına dəymişdir.
- E. Böhrandan əvvəlki dövrdə birja indeksləri davamlı şəkildə yüksəlmişdir.

Download: http://Yusif.Az

Sual **88**
Cavablandırılmayıb
0 - 1
İşarə

“Mənə göndərdiyin şeir və hekayələrini maraqla oxudum. Bir çox gənc kimi sənin də şair və yazıçılığı eyni anda davam etdirmək istədiyini görürəm. Hekayələrində mövzu və süjet xətti baxımından həssaslığa daha çox əhəmiyyət vermisən. Şeirlərin üçün eyni gözəl sözləri söyləyə bilməyəcəyəm. Bu sahədə də bəzən gözəl qafiyələr qurduğunu söyləyə bilərəm. Amma bilməlisən ki, güclü və gözəl şeir yazmaq üçün uzun müddətli mütaliə və söz potensialına sahib olmalısan. Bu yazdıqlarım yeni nümunələr göndərməyinə əngəl yaratmasın. Gələcəkdə istədiyin hər iki sahədə adının çəkiləcəyinə inanıram.”
Verilmiş mətndə gəncə söylənilənlər arasında aşağıdakılardan hansı yoxdur?

Cavablardan birini seçin:

A. Şeirdən çox hekayə yazmağa üstünlük verməlisən.

B. Yeni şeir və hekayələrini görmək istəyirəm.

C. Hekayələrin şeirlərindən daha uğurlu alınıb.

D. Şair olmaq üçün təkmilləşməlisən.

E. Şair və yazıçı kimi uğur qazana bilərsən.

Sual **89**
Cavablandırılmayıb
0 - 1
İşarə

“?” işarəsinin yerinə uyğun gələn variantı tapın:




Cavablardan birini seçin:

A. 

B. 

C. 

D. 

E. 

Download: http://Yusif.Az

Sual **90**

Cavablandırılmayıb

0 - 1

İşarə

"?" işarəsinin yerinə uyğun gələn variantı tapın:

$$\begin{array}{r|l} x & y \\ - & 6 \\ \hline 2 & \end{array} \qquad \begin{array}{r|l} y & z \\ - & 5 \\ \hline 4 & \end{array} \quad \Rightarrow z = ?$$

Cavablardan birini seçin:

- A. $\frac{x+4}{2}$
- B. $\frac{x+24}{30}$
- C. $\frac{x+6}{5}$
- D. $\frac{x-26}{30}$
- E. $\frac{x-12}{5}$

Sual **91**

Cavablandırılmayıb

0 - 1

İşarə

I ardıcıllıqdakı qanunauyğunluğa əsasən "?" işarəsinin yerinə uyğun gələn variantı tapın:

| | | | | |
|---|---|---|---|---|
| I. | 1 | 9 | 25 | 49 |
| II. | ? | ? | ? | ? |

Cavablardan birini seçin:

- A. 49 81 120 144
- B. 64 49 81 121
- C. 49 81 121 169
- D. 36 49 81 100
- E. 49 81 124 144

Download: http://Yusif.Az

Sual **92**

Cavablandırılmayıb

0 - 1

İşarə

"?" işarəsinin yerinə uyğun gələn ədədi tapın:

| + | a | b | c |
|---|---|---|---|
| K | 2L+2 | | |
| L | | 2M+7 | |
| M | | | 2K+1 |

a + b + c = 5

K + L + M = ?

Cavablardan birini seçin:

- A. 0
- B. -10
- C. 10
- D. -5
- E. 5

Sual **93**

Cavablandırılmayıb

0 - 1

İşarə

"?" işarəsinin yerinə uyğun gələn ədədi tapın:




Cavablardan birini seçin:

- A. 13
- B. 12
- C. 1
- D. 14
- E. 8

Sual **94**

Cavablandırılmayıb

0 - 1

İşarə

"?" işarəsinin yerinə uyğun gələn variantı tapın:

3, 64, 5, 16, 32, 6, 51, 16, 14, 104, 8, 45, A, 4, B

A + B = ?

Cavablardan birini seçin:

- A. 303
- B. 189
- C. 284
- D. 109
- E. 289

Download: http://Yusif.Az

Sual **95**

Cavablandırılmayıb

0 - 1

İşarə

"?" işarəsinin yerinə uyğun gələn ədədi tapın.

| | |
|---|---|
| I. | ⊙ 8432 = 26 |
| II. | ⊙ 5763 = 17 |
| III. | ⊙ 4928 = 20 |
| IV. | ⊙ 6543 = **?** |

Cavablardan birini seçin:

- A. 16
- B. 12
- C. 14
- D. 18
- E. 20

Sual **96**

Cavablandırılmayıb

0 - 2

İşarə

"*Dərilmiş meyvələrin şirin olanlarının bəziləri zədəlidir*" cümləsinə əsasən verilən mühakimələrdən hansı mütləq doğrudur?

Cavablardan birini və ya bir neçəsini seçin:

- 1. Şirin olmayan meyvələrin hamısı zədəsizdir
- 2. Şirin meyvələrin bəziləri zədəsizdir
- 3. Zədəli meyvələrin bəziləri şirin deyil

Sual **97**

Cavablandırılmayıb

0 - 2

İşarə

İpin bir yarısını 8, digər yarısını isə 5 bərabər parçaya bölürlər. Uzun parça ilə qısa parçanın fərqi 12 sm-dir. İpin ümumi uzunluğu neçə santimetrdir?

Cavab:

Download: http://Yusif.Az

Sual **98**

Cavablandırılmayıb

0 - 2

İşarə

“?” işarəsinin yerinə uyğun gələn ədədi tapın:

| + | 4 | 5 | 6 |
|---|---|---|---|
| K | a | | |
| L | | | |
| M | | | |

| + | K | L | M |
|---|---|---|---|
| a | 8 | | |
| b | | | |
| c | | | |

K = ?

Cavab:

Sual **99**

Cavablandırılmayıb

0 - 2

İşarə

“?” işarəsinin yerinə uyğun gələn ədədi tapın:

| | |
|---|---|
| I. | $a \bigstar b = \dfrac{\frac{a}{b}}{\frac{b}{a}}$ |
| II. | $a \square b = \dfrac{a \bigstar b}{b \bigstar a}$ |
| III. | $16 \square 4 = ?$ |

Cavab:

Download: http://Yusif.Az

Sual 100

Cavablandırılmayıb

0 - 2

İşarə

Doqquz fərqli fiqurun hərəsinin çəkisi 1-dən 9-a qədər olan ədədlərdən birinə (hərəsi fərqli bir ədədə) uyğundur. Tərəzilərin vəziyyətlərini nəzərə alaraq fiqurların ifadə etdiyi ədədləri müəyyən edin və verilmiş fiqurları ifadə etdikləri ədədlərin qiymətinin artması ardıcıllığı ilə düzün.











Download: http://Yusif.Az

Cavablar

1) E
2) B
3) D
4) B
5) B
6) B
7) C
8) E
9) B
10) C
11) D
12) D
13) 2.3.6
14) 2.4
15) 1.5
16) B
17) A
18) C
19) A
20) A
21) D
22) B
23) B
24) C
25) C
26) C
27) C
28) A
29) A
30) C
31) C
32) B
33) A
34) A
35) D
36) C
37) A
38) C
39) C
40) A
41) C
42) D
43) B
44) D
45) D
46) D
47) B
48) 2.3.6
49) 3.6
50) 1.3.6
51) 3.5.6
52) 1.5.6
53) 2.5
54) 1.2.4
55) 1.4.5
56) D
57) E
58) B
59) C
60) C
61) E
62) A
63) C
64) B
65) C
66) D
67) E
68) 2.5.6.7
69) 1.3.4
70) 320
71) C
72) A
73) A
74) B
75) C
76) A
77) B
78) E
79) D
80) E
81) E
82) E
83) D
84) 1-elşən,2-vaqif,3-adil,4-toğrul,5-anar
85) E
86) B
87) A
88) A
89) A
90) D
91) C
92) D
93) A
94) E
95) D
96) 2
97) 320
98) 2
99) 256
100) 1.2.4.3

Download: http://Yusif.Az